***Növbəti, XXXI Yay Olimpiya Oyunları ili olan 2016-cı ilin start ayı hiss olunmadan ötüb keçdi, elə fevral da getdikcə sürətini artırır. İndi idman aləmini dünya atletlərinin zirvə yarışından altı aylıqdan da az bir məsafə ayırır. Rio-de-Janeyro Olimpiadasına qalan yarım il də gözümüzü açıb-yummağa macal tapmamış başa çatacaq və avqustun 5-dən planetin hər yerində nəzərlər futbol əfsanələri vətəninə yönələcək. Pele və onun həmvətənləri də Braziliyanın Olimpiya oyunlarının iştirakçı və qonaqlarını qəbul edən Cənubi Amerikanın ilk ölkəsi olmasından qürur duyacaqlar.***

# Atlantadan Rioya aparan iyirmi il

## *Braziliyada XXXI Yay Olimpiya Oyunları müstəqil Azərbaycan komandası üçün altıncı Olimpiada olacaq*




Olimpiya oyunları adi bir yarış, ötəri idman hadisəsi deyil, əsl savaş, son dərəcə kəskin rəqabət, gərgin mübarizə, nəhayət, sınaq və şöhrət meydanıdır. Bu meydanda qazanılan medallar təkcə onların sahiblərinə yox, təmsil etdikləri ölkələrə hədsiz sevinc, böyük beynəlxalq nüfuz gətirir. Olimpiya çempionlarının adları dünya idmanı tarixinə qızıldan da qızıl hərflərlə yazılır, onların portretləri şöhrət muzeylərini bəzəyir və dünya durduqca bu qəhrəmanlar minnətdarlıq hissi ilə xatırlanır. Şöhrətin zirvəsinə yüksələnlər, həqiqətən, hər cür hörmət və ehtirama layiqdirlər.

Rio Olimpiadası Azərbaycan idmançıları üçün ikiqat məsuliyyət tələb edən xüsusi bir Olimpiada olacaq. Bu il həmvətənlərimizin müstəqil ölkənin komandası kimi Olimpiya oyunlarında debütünün iyirminci ildönümüdür, 1996-cı il iyulun 19-da ABŞ-ın Atlanta şəhərindən başlanan yol 2016-cı il avqustun 21-də iyirmi illiyini Rio-de-Janeyroda başa vuracaq.

Artıq qət olunmuş yolu əsl zəfər yolu, Azərbaycan olimpiyaçılarının böyük qələbələr yolu hesab etməyə tam əsasımız var. Milli komandamız bu ilin oktyabrında təntənəli surətdə qeyd edəcəyimiz Azərbaycanın dövlət müstəqilliyinin 25-ci ildönümünü layiqli töhfələrlə qarşılamaq, beş Olimpiadadan vətənimizə gətirilmiş 26 medalın sayını artırmaq, idman qənimətləri xəzinəmizi daha da zənginləşdirmək arzusu ilə yaşayır.

Hələlik isə Azərbaycan idmanının ən yaxşı nümayəndələri Rio – 2016-ya mümkün qədər çox lisenziya "axtarışındadırlar". Onlar artıq qarşıdakı startlara 32 "bileti" ölkəmizə təmin etmişlər və Olimpiadayadək bu rəqəmin ikiqat artacağını gözləmək olar. XXXI Olimpiya Oyunlarına hazırlıq prosesinin gedişində və qazanılacaq növbəti lisenziyalar haqqında qeydlərimizdə, Braziliyaya ezam ediləcək Azərbaycan olimpiyaçıları haqqında söhbətlərdə növbəti Olimpiya ümidlərimiz, onların plan və perspektivləri barədə ətraflı danışmaq üçün hələ vaxtımız və imkanımız olacaq.

Rio-de-Janeyroda Olimpiadanın açılışına beş gün qalmış Azərbaycan Prezidenti cənab İlham Əliyevin 1997-ci il iyulun 31-də Milli Olimpiya Komitəsinin rəhbəri seçilməsinin on doqquzuncu ili tamam olacaq. MOK Prezidentinin ölkə Olimpiya hərəkatına rəhbərliyinin elə ilk günlərindən Azərbaycan idmanının sürətlə tərəqqi yoluna çıxması, yüksək nailiyyətlər qazanması üçün gördüyü böyük işlər, həyata keçirilən təxirəsalınmaz tədbirlər, atletlərin məşq və yarışlarda iştirakı üçün yaradılan gözəl şərait artıq illərdir ki, özünüzün də şahidi olduğunuz kimi, gözəl bəhrə verir, Azərbaycanın gündən-günə çiçəklənən və möhkəmlənən bir idman ölkəsi kimi beynəlxalq nüfuzu durmadan artır.

Olimpiada – 2016 hazırda dövlətimizin və idmanımızın lideri İlham Əliyevin rəhbərliyi altında Azərbaycan atletlərinin sayca beşinci Olimpiya oyunları olacaq. Müstəqil Azərbaycan komandasını özünün ən birinci Olimpiya oyunlarına isə (1996-cı il, Atlanta, ABŞ) ulu öndər Heydər Əliyev yola salmış və Olimpiadadan sonra nümayəndə heyətimizin üzvlərini böyük razılıq hissi ilə qəbul etmişdi.

Okeanın o tayında sərbəst güləş ustası Namiq Abdullayevin qazandığı gümüş medalın sevinci ölkəmizdə yerə-göyə sığmırdı. Zarafat deyildi, Azərbaycan müstəqil komanda şəklində təmsil olunduğu elə ilk Olimpiya oyunlarında medalların hesabını açmış və qeyri-rəsmi komanda hesabında 197 ölkə arasında bizim üçün qürurverici 61-ci yeri tutmuşdu. Azərbaycanlı Olimpiya mükafatçısı bir çox ölkə təmsilçilərinin birlikdə görə bilmədiyi işin öhdəsindən təkbaşına gəlmişdi!

Təsadüfi deyil ki, Prezident Heydər Əliyev Namiq Abdullayevin gümüş medalını böyük fəxrlə qızıl mükafata bərabər tutmuşdu.

Dörd ildən sonra Sidneydə (Avstraliya) keçirilən XXVII Yay Olimpiya Oyunları isə Azərbaycan güləş məktəbinin, bütövlükdə ölkə idmanının ən görkəmli nümayəndələrindən biri N.Abdullayevin heç vaxt unudulmayacaq daha böyük qəhrəmanlığı ilə əlamətdar oldu. Atlantada qazandığı gümüş medala "Yaşıl qitə"də ən yüksək əyarlı mükafat da əlavə edib çempionluq zirvəsini fəth edən güləşçimiz artıq Olimpiya oyunlarının ikiqat mükafatçısı idi. Həm də o, olimpiadalarda müstəqil Azərbaycana iki medalın sevincini yaşatmış ilk idmançımızdır.

Olimpiya çempionu bu gün də güləş məktəbimizin zəngin ənənələrinin davam etdirilib, daha da möhkəmləndirilməsi naminə öz sevimli idman növünə sədaqətlə xidmət edir, Milli Güləş Federasiyasının yeniyetmələr üzrə vitse-prezidenti kimi davamçılarının məsul yarışlara, ilk növbədə isə Rio Olimpiadasına yüksək səviyyədə hazırlanması işinə zəngin təcrübəsi ilə əlindən gələn köməyi əsirgəmir.

Azərbaycan Sidney — 2000-də dünyanı təkcə N.Abdullayevin çempion medalı ilə heyrətləndirmədi. Uzaq Avstraliyada ölkəmizin dövlət himni bir daha səsləndirildi. Bu dəfə stend atıcılığı yarışlarında Zemfira Meftahəddinovanın qələbəsi şərəfinə. Zemfira fəxr edə bilər ki, o, müstəqil Azərbaycanın Olimpiya çempionu adını qazanmış ilk qadın idmançısıdır. Bir də ki N.Abdullayev kimi olimpiadaların ikiqat azərbaycanlı mükafatçısıdır. Fərq yalnız bundadır ki, müstəqillik dövründə ölkəmizin qadın idmanında ən yüksək nailiyyətlərin müəllifi 2004-cü ildə Afinada bürünc medal qazanmışdır.

Hazırda isə Z.Meftahəddinova ölkə idmanına respublika Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin sədri kimi məsul vəzifədə xidmət edir.

Sidney Olimpiadası həm də yadımızda rinqdə qazanılmış bir bürünc medalla qalmışdır. İdmanın yüksək ustalıqla yanaşı, həm də fədakar döyüşçü bacarığı tələb edən çətin bir növündə Azərbaycanın boks ustalarının Olimpiya mükafatlarının hesabını açmış Vüqar Ələkbərov da idman hərəkatımızın məşhur yetirmələrindəndir və bu gün müstəqil Azərbaycanın Olimpiya medallarından birinin sahibidir.

Sidneydən sonra dünya 2004-cü il Afina Olimpiadasına hazırlığa start verdi. Yunanıstanın baş şəhərində XXVIII Olimpiya startlarında təmsilçilərimiz beş dəfə fəxri kürsüyə dəvət olundular — 1 qızıl və 4 bürünc medal onların idman hünərinə görə layiqli mükafat idi.

Afinada medal qazanan Azərbaycan olimpiyaçıları arasında baş rolu yunan-Roma güləşi ustası Fərid Mansurov oynadı. Bütün görüşlərdə qələbə nəhəng idman sarayına toplaşanları, eləcə də Azərbaycanın hər yerində yüz minlərlə idman həvəskarını, hətta belə deyə bilərik ki, bütün xalqımızı teleekran qarşısında hədsiz sevinclə, tarixi qələbənin doğurduğu qanuni iftixar və əlbəttə ki, bir də Fəridə dərin minnətdarlıq hissi ilə ayağa qaldırdı. Həmin gün Azərbaycan güləş məktəbi öz tarixinə daha bir şərəfli səhifə yazdı. Bu dəfə "klassik" güləşdə.

Hazırda Fərid də idmanda fəaliyyətini məsul vəzifədə davam etdirir. Azərbaycan Güləş Federasiyasının gənclər üzrə vitse-prezidenti F.Mansurovun təmsilçilərimizin, xüsusən də bu növün nümayəndələrinin Olimpiada xalçası üzərində çıxışlarını necə böyük həyəcanla gözlədiyini təsəvvür etmək çətin deyil.

Yunanıstan paytaxında Azərbaycan idmanı nümayəndələrinə dörd bürünc medal da təqdim olundu. Müasir Olimpiya oyunlarının vətənindən həmin medalları Afina startlarından on bir il sonra, 2015-ci ildə tarixdə ilk Avropa Oyunlarının vətəni kimi özünə layiqli yer edən Azərbaycana Z.Meftahəddinova ilə yanaşı, digər qadın olimpiyaçımız güllə atıcısı İradə Aşumova, boksçular Ağası Məmmədov və Fuad Aslanov gətirdilər.

Daha dörd il sonra, 2008-ci ildə XXIX Yay Olimpiya Oyunlarının keçirildiyi Pekində Azərbaycan idmanının beynəlxalq nüfuzu daha da artdı. Çin Xalq Respublikasının paytaxtında nümayəndə heyətimiz 7 medalın-1 qızıl, 2 gümüş və 4 bürünc mükafatın sevincini yaşadı.

Olimpiya oyunlarının azərbaycanlı qəhrəmanlarının siyahısında növbəti çempion cüdoçu Elnur Məmmədlidir. Pekində 73 kq çəki dərəcəsində sanki gülə-gülə, oynaya-oynaya bütün rəqibləri üzərində üstünlüyünü inamla sübuta yetirib tarixi nailiyyətinə zərrə qədər də şübhə yeri qoymayan Məmmədli Olimpiya fəxri kürsüsünün birinci pilləsinə yüksəlməklə şöhrətin də zirvəsinə ucaldı və bütün cüdo aləmi ondan danışmağa başladı.

İndi E.Məmmədli Azərbaycan cüdosunda rəhbər şəxslərdən biri, federasiyanın vitse-prezidenti kimi qarşıdakı avqust sınaqlarında tatami ustalarımızın ən fəal pərəstişkarlarından biri olacaq.

Pekində fərqlənib Azərbaycan bayrağını yüksəklərə ucaltmış digər altı mükafatçımızı da xatırlayaq: gümüş medalların sahibləri, yunan-Roma güləşçiləri Rövşən Bayramov, Vitali Rəhimov, bürünc mükafatçılar, sərbəst güləşənlər Xetaq Qazyumov, Mariya Stadnik, Şahin İmranov (boks), Mövlud Mirəliyev (cüdo).

Bu altı qardaş və bir bacının birgə səylə qazandıqları 7 medal Azərbaycan komandasını mükafatçı ölkələrin siyahısında 204 dövlət arasında 39-cu yerə çıxardı. Bu isə o deməkdir ki, nə az, nə də çox — 165 ölkə bizdən geri qalmışdı.

Əgər Atlantadan başlayaraq Pekinədək Azərbaycan idmançıları Olimpiadadan Olimpiadaya öz mükafatlarının sayını iki-iki artırmışdılarsa, işlərin bu qaydada davam edəcəyi təqdirdə London — 2012-dən doqquz medal gözləməli idik. Lakin İngiltərə paytaxtında olimpiyaçılarımız daha yüksəyə tullandılar, daha uzağa getdilər: 10 medal — 2 qızıl, 2 gümüş, 6 bürünc mükafat!

Güləşçilər Londonda Atlanta, Sidney, Afina və Pekindəkindən də uğurla çıxış edib 7 medal qazandılar. Olimpiya çempionları "sərbəstlər" Toğrul Əsgərovla Şərif Şərifovu, gümüş mükafatçılar, yunan-Roma güləşçisi Rövşən Bayramov, qadın güləşimizin bir nömrəsi Mariya Stadnik, bürünc medalçılar Emin Əhmədov (yunan-Roma), Yuliya Ratkeviç və Xetaq Qazyumovu (sərbəst güləş) fəxri kürsüdə görəndə ürəyimiz dağa döndü. Dəri əlcək ustaları Teymur Məmmədovla Məhəmmədrəsul Məcidovun Azərbaycan boksçularının Olimpiya rinqində bürünc medallarının sayını (Sidneydən Londonadək) 6-ya çatdırmaları da mütəxəssislərimizin bü növün inkişafında düzgün istiqamətdə olduqlarını bir daha təsdiq etdi. Ağırlıqqaldıran Valentin Xristovun "bürünc" müvəffəqiyyəti də unudulmayıb.

Azərbaycanın 204 ölkə olimpiyaçılarının on yeddi gün davam edən kəskin rəqabətində ümumkomanda hesabında 30-cu pilləyə yüksəlməsi və olimpiadalarda iştirakımız tarixində ən yaxşı nəticə göstərməsi, təbii ki, dünyanın diqqətini cəlb etdi, ölkəmizin əsl idman dövlətinə çevrilməsi bir daha bütün planetdə yekdilliklə etiraf olundu.

Dünyanın hər yerində XXXI Yay Olimpiya Oyunlarına hazırlıq və lisenziyalar uğrunda mübarizə həlledici mərhələyə qədəm qoymuşdur. Qarşıdakı Oyunlar Azərbaycan üçün bir də onunla əlamətdar olacaq ki, Rioda yarışlar nümayəndə heyətimizin müstəqil komanda kimi meydana çıxacağı sayca altıncı Olimpiada olacaq. Atlanta, Sidney, Afina, Pekin və Londonda idmançılarımıza təqdim olunmuş 26 medal Azərbaycanın əbədi sərvətidir. Braziliyada bu sərvəti artırmaq isə indiki olimpiyaçıların şərəf işi olacaq.

*Oqtay BAYRAMOV,*
*"Xalq qəzeti"*